# Görkəmli pedaqoq, ədəbiyyatşünas alim



**Yaşadığımız cəmiyyətdə elə şəxsiyyətlər var ki, yeri gələndə onların haqqında böyük ehtiramla, sevgiylə, hətta fəxrlə danışmaq, yazmaq istəyirsən. Çünki belə şəxsiyyətlər yaşam boyu böyük ideallar, məqsədlər uğrunda mübarizə aparır, özlərindən sonra bir iz qoymağa çalışır, vətənə, xalqa şərəflə xidmət etməyi həyatlarının amalı hesab edirlər. Millətə xidmət etməyin yeni və daha mükəmməl yollarını arayırlar. Böyük zəhmətləri, çalışmaları sayəsində elinə, vətəninə şöhrət gətirir, hansısa bir sahədə kəşfləri, ilkləri ilə heyrətamiz uğurlar qazanırlar. Xalqın mənəvi-əxlaqi dəyərlərini, milli təfəkkür sərvətini ölkə xaricində tanıtmağa, təbliğ etməyə, başqa xalqlarla bir çox sahələrdə əlaqələrin vüsətli inkişafına səy göstərirlər.**

Son zamanlar belə işıqlı insanlar haqqında düşünəndə ilkin olaraq yadıma Azərbaycan ədəbiyyatşünaslığının görkəmli nümayəndəsi, filologiya elmləri doktoru, professor, onlarla monoqrafiya, kitabların, yüzlərlə elmi araşdırmaların, publisistik yazıların, itirilmiş torpaqlarımızın yanğısı, xiffəti ilə süslənmiş esselərin müəllifi Əsgər Zeynalov düşür.

Müxtəlif vaxtlarda Əsgər müəllim haqqında yazılmış bir çox məqalələrlə tanış olunca görmüşəm ki, onun həyatı, elmi-ədəbi axtarışları ilə bağlı həm vətənimizdə, həm də ölkə xaricində elə uğurları olub ki, bir çox görkəmli elm-sənət adamları onlardan ağızdolusu, fəxarət hissilə, həm də dönə-dönə bəhs etmişlər. Əslində bu xoş hadisələr, qazanılan uğurlar milli təəssübkeşlik, dünyəvi mahiyyət kəsb etdiyindən hər kəs öz mövqeyindən ona səmimiyyətlə, heyranlıqla münasibətini bildirmişdir. Biz də bu yazıda onun elmi-ədəbi fəaliyyətinə, ictimai baxışlarına, mənəvi dünyasına öz prizmamızdan yanaşmağa çalışacağıq.

Əsgər Zeynalovu hələ şəxsən tanımadığım vaxtlarda onun dövri mətbuatda yurd-torpaq itkiləri ilə bağlı xeyli məqalələri, "İrəvan ziyalıları" adlı möhtəşəm abidə-əsəri ilə tanış idim. Sonralar bu vətənpərvər, təəssübkeş ziyalını yaxından tanıdıqda onun mədəni, təvazökar insan, istedadlı, zəhmətkeş bir alim olduğunun də fərqinə vardım. Bundan başqa onun mütəxəssisi olduğu sahənin - fransız ədəbiyyatının parlaq simaları olan Volter, Viktor Hüqo monoqrafiyalarından, digər görkəmli sənətkarlardan etdiyi tərcümələrdən, xeyli sayda müxtəlif mövzuda yazdığı kitablarından da xəbərdar oldum. Professorun genişəhatəli, həm də böyük zəhmət tələb edən işlərinin sırası o qədər zəngindir ki, onların hər birindən ayrılıqda bəhs etmək heç şübhəsiz, böyük bir əsərin mövzusudur.

Əsgər Zeynalovun elmi, pedaqoji və ədəbi yaradıcılığından söhbət açdığımız bir vaxtda çox məqamlara toxunmaq, çox hadisələrlə zəngin olan xatirələrə işıq salmaq lazım gələcək, hətta bunlar ayrı-ayrı insanların baxışlarında təkrar-təkrar səslənmiş olsa belə, bizim də başqa aspektdən yanaşmamız olacaqdır. Çünki, həyatının əksi olan yüksək əxlaqı, mənəvi zənginliyi, fitri istedadı, ensiklopedik yaddaşa malik olması, çoxsaylı elmi-ədəbi axtarışları yolundakı çalışmaları, mücadiləsi, uğurları səmimi, xeyirxah insanın, fədakar alimin ömrünə saçılan işıqlar timsalındadır. Bu işıqların aydınlığında Əsgər müəllimin obrazı olduqca əzəmətli görünür.

Əsgər Məmməd oğlu Zeynalov 1951-ci il sentyabr ayının 27-də Qərbi Azərbaycanın İrəvan yaxınlığındakı Zəngibasar mahalının Yuxarı Necili kəndində anadan olmuşdur. O, Zəngibasar rayonunun kənd səkkizillik, Uluxanlı orta məktəbini, 1974-cü ildə isə APXDİ-nin fransız dili fakültəsini bitirmişdir. 1988-ci il hadisələrindən sonra Bakıya köçmüş, 1989-cu ildən APXDİ-nin Praktik fransız dili kafedrasında fəaliyyətini davam etdirmişdir. Ə.Zeynalov 1991-ci ildə "Azərbaycan bayatıları Qafqaz regionunda" mövzusunda namizədlik, 2003-cü ildə "Fransız ədəbiyyatında Şərq mövzuları (Volterin yaradıcılığı üzrə) doktorluq dissertasiyası müdafiə etmişdir. 2005-ci ildən ADU-nun professorudur.

Onun uşaqlığı, məktəb illəri, ali təhsil aldıqdan sonrakı fəaliyyətinin çox illəri doğma yerlərdə keçib. AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun dissertantı kimi tədqiqat işlərini, araşdırmalarını da əsasən İrəvanın arxiv və kitabxanalarında, muzeylərində aparıb. Deyilənə görə o, İrəvanda, erməni qaynaqlarında axtarışlar aparan sonuncu azərbaycanlı alimlərindəndir. Əsgər Zeynalov İrəvan xanlığının görkəmli şəxsiyyətlərinin - alimlərin, maarifpərvər ziyalıların adlarını, qədim abidələrini əsərlərində əbədiləşdirib. Doğma yurdu tərk edəndən mənfur düşmənə qalmış ata-baba yurdunun itkisi onu korun-korun yandırır. Nə xoş ki, tale ona məcburən tərk etdiyi doğma yerləri 13 ildən sonra, 50 yaşında ziyarət etməyi nəsib etdi (Bu, UNESCO-nun xətti ilə "Cənubi Qafqazda Təhsil Problemləri" mövzusunda İrəvanda keçirilən beynəlxalq konfransda iştirakı ilə əlaqədar olmuşdur). Amma bu ziyarət, bu görüş uzun müddət gerçək nağıllara dönmüş nisgilli xatirələrinin hifz etdiyi yaddaşını göynətdi.

Burda Azərbaycan Respublikası Milli Məclisinin deputatı prof. Səməd Seyidovun onun haqqında, abidə əsəri olan "İrəvan ziyalıları" haqqında dediyi aşağıdakı fikirləri xtırlamaya bilmirəm: "Bu gün Əsgər müəllimin yazdığı, yaratdığı, bizə təqdim etdiyi əsərlər, kitablar bir nümunədir, xalqın tarixidir. Özü də əzilmiş, həmişə problemlər içərisində olmuş, başa düşülməyən, yerlərindən qovulan, didərgin salınan Azərbaycan xalqının tarixini yaradıb bu insan... Onun fəaliyyəti və yaradıcılığı əsasında Azərbaycanda bilinməyən alimlər bilinib, Azərbaycanda tanınmayan şairlər tanınıb, Azrbaycan tarixində məkanı, yeri məlum olmayan məkanlar müəyyən olunub".

Mənim yaxşı yadımdadır, milli oyanış dövrünün ilkin çağlarından respublikada yaranan bütün mətbuat orqanlarında onun imzası ilə qəlbinin harayı olan didərginlik mövzusunda dərin məndəricəli yazıları dərc olunurdu. Zəngibasarın qeyrətli oğlu min bir əziyyətlə XIV əsrin axırlarından XX əsrin əvvəllərinə qədər İrəvanı azərbaycanlıların idarə etməsi faktını ermənilərin öz mənbəsindən, Ermənistan Sovet Ensiklopediyasından (III cild, səh. 571) araşdırıb üzə çıxarmışdır. Ayağına "dəmir çarıq geyinib, əlinə dəmir əsa" alaraq uzun yollar qət edərək nə az-nə çox, düz 10 il İrəvan xanlığının 180-200 ildə yaşamış köklü nəsillərin, görkəmli elm-sənət xadimlərinin şəcərə tarixini araşdırıb, bu ziyalıların övladlarını axtarıb, onlardan topladığı zəngin məlumatlara əsaslanan yazılar ərsəyə gətirib, ağrılı, yanğılı gerçək nağıllar yazıb. Sonra da özünün doğma övladlarını itirmiş Qərbi Azərbaycana sarı boylanaraq göynəyə-göynəyə "İrəvanda nə qaldı ki..." deyərək göz yaşlarını içinə axıdıb.

Elmi-ədəbi fəaliyyətində bir çox ilklərə imza atan Əsgər Zeynalovun bütün çalışmaları - xalqın maariflənməsi, ədəbiyyatımızın, mədəniyyətimizin zənginləşməsi, onun xalqına və vətəninə bir vətən oğlu kimi, borc hissindən yaranıb. Bunlar əsasən Azərbaycan ədəbiyyatşünaslığına gətirdiyi çoxsaylı yeniliklərlə əlaqədardır. Fransız ədəbiyyatından ilk monoqrafiya (Fransız ədəbiyyatında Şərq - 1996); fransız alimlərinin rəy verdiyi ilk monoqrafiya (Görkəmli fransız şərqşünası Jan Lui Bakke Qrammon - 1997; Volter haqqında ilk monoqrafiya (Şərq Volter yaradıcılığında - 2001); Viktor Hüqo haqqında ilk monoqrafiya (Viktor Hüqo - 2001); Fransız ədəbiyyatından ilk doktorluq dissertasiyası (Fransız ədəbiyyatında Şərq mövzuları - 2003); Azərbaycan ədəbiyyatşünaslığında ilk dəfə olaraq namizədlik dissertasiyasını bir dillə-qaynaqla, doktorluq dissertasiyasını başqa bir dillə-qaynaqla bağlı (erməni və fransız) yazmış tədqiqatçı; Fransa mətbuatında haqqında məqalə dərc olunmuş ilk Azərbaycan ədəbiyyatşünası: "Viktor Hüqonun azərbaycanlı mütəxəssisi Dil Vərdişləri Mərkəzində" məqaləsi - "LEST Republicain" qəzeti, 11 avqust 2007, Fransa (xatırladaq ki, məqalənin müəllifi Hüqonun fransız mütəxəssisi, dünya şöhrətli alim, Parisdə "Hüqonun Dostları Cəmiyyəti"nin sədri Arno Lasterdir); Ziyalılar haqqında ilk fundamental kitabın müəllifi ("İrəvan ziyalıları" - 1999); ADU-nun ixtisaslaşmış doktorluq Şurasının ilk üzvlərindən biri...

Onu da qeyd edək ki, Ə.Zeynalov Fransanın iki nəhəng yazıçısı - Volter və V.Hüqo haqqında monoqrafiyalara qədər fransız ədəbiyyatının görkəmli nümayəndələri - Volter, O.Balzak, J.Sand, A.Düma (ata), Q.Flober, G.Mopassanın yaradıcılığından bəhs edən bir sıra tədqiqat xarakterli məqalələrlə dövri mətbuatda çıxış etmişdir. Sevindirici haldır ki, artıq Fransada onu Hüqonun ən yaxşı mütəxəssisi kimi tanıyır, haqqında ürək dolusu danışır, fransız mətbuatında ondan səxavətlə və məhəbbətlə söz açırlar. Müəllifin bu sahədə yazıb-yaratdıqlarına (Azərbaycan və fransız dillərində), iki ölkə arasında ədəbi-mədəni əlaqələrin inkişafında bilavasitə iştirakına, eləcə də fransız ədəbiyyatının bir sıra problemlərinin işıqlandırılmasına nəzər yetirəndə müəllifin işgüzarlığına heyrət etməmək olmur.

Əsgər Zeynalov 30-a yaxın kitabın, 350-dən çox elmi-publisistik məqalənin müəllifidir. Bu kitabların sırasında "Azərbaycan bayatıları Qafqaz regionunda" (2001), "Altaydan-Altaya" (2002), "İllərin yol yoldaşı" (2004), "Hara gedir bu qatar?" (2006), "Orda bir yurd var, uzaqda" (2006), "Dil və ədəbiyyatın tədrisinə dair düşüncələr" (2009), "O, bir əsr idi..." (2010), "İrəvan ziyalıları" (2011, ingilis dilində), "İrəvan məktəbləri" (2011), "Viktor Hüqo və Lui Araqon şeirlərinin tərcüməsi - 2012", "Fransız ədəbiyyatının milyarderi" - 2013 (fransız dilində), "Hüqo" - 2014, "Hüqo" - 2014 (təkmilləşdirilmiş nəşri, Azərbaycan, fransız dillərində), "İrəvan xanlığı... gerçəkliyin aydınlığı" - 2016, "Hüqonun Şərq baxışı" 2016 (İngiltərə, London) müəllifin yaradıcılıq diapazonunun genişliyi diqqəti cəlb edir. Burda onu da xüsusi vurğulamaq lazım gəlir ki, "Hüqonun Şərq baxışı"nda fransız yazıçısının İslam dinini qəbul etməsi faktının üzə çıxarılmasının da əsərdə öz əksini tapması və İngiltərədə nəşr olunması Əsgər Zeynalovun böyük cəsarəti idi. Bu da maraqlı faktdır ki, Hüqonun anadan olmasının 100 illiyində - 1902-ci ildə Fransa dövləti onun İslam dininə həsr etdiyi şeirlərinin 100 il müddətinə nəşrini qadağan etmişdir. Ə.Zeynalov bu əsərlərə ("Hicrinin doqquz ili", "Məhəmməd", "Sidr ağacı") yazıçının sağlığında, 1859-cu ildə nəşr olunmuş "Əsrlərin əfsanəsi" kitabından məlumatlı idi. Yeri gəlmişkən, "Hüqo" əsəri haqqında çıxışlarının birində professor Cəlil Nağıyev demişdir ki, bu monoqrafiyada hər şey yenidir, ancaq Hüqonun İslam dinini qəbul etməsi tamamilə gözlənilməz idi. Əsgər Zeynalov Azərbaycanda ən böyük hüqoşünas alimdir.

Uzun illər onunla bir universitetdə çalışan professor Sevda Vahabova yazır: "Tale elə qismət etdi ki, mən onunla 2007-ci ildə Fransanın Bözanson şəhərində Franş Konte Universitetinin Dil Tətbiqi Mərkəzində təkmilləşmədə olduq. Səmimi yol yoldaşı olan bu xeyirxah, milli qeyrətli insanın dəfələrlə öz elmi mühakimələri ilə bizə dərs deyən fransız alimlərini necə çətin vəziyyətə saldığının şahidiydik - mən və səfər yoldaşlarım. Hətta bir dəfə Əsgər müəllim Fransız ədəbiyyatından elə gözəl təhlil verdi ki, professor Fransua Mijo yerindən cəld qalxıb əyləşdiyi stulu göstərərək dedi: "Gəlin mənim yerimdə əyləşin!" Zalda əyləşənlər müəllimin bu sözündən sonra Əsgər Zeynalovu alqışlamağa başladılar. Dəfələrlə başqa dövlətin nümayəndələri bizə deyirdilər: "Siz xoşbəxtsiniz. Sizin çox müdrik bir aliminiz var. Sizin Hüqo yaradıcılığı üzrə çox gözəl bir mütəxəssisiniz var..."

Alman filosofu Volter Benjamən deyib ki, Paris XIX əsr dünyanın paytaxtıdır. Görkəmli Meksika yazıçısı, Nobel mükafatı laureatı Oktavio Pas deyir ki, Paris XX əsr dünyanın paytaxtıdır. Nobel mükafatı laureatı Leklüzio: Paris XXI əsr dünyanın paytaxtıdır, deyir. Əgər bütün Avropanı silkələyən 1789-cu il böyük Fransa inqilabını nəzərə alsaq, Paris XVIII əsrdə də dünyanın paytaxtı olmuşdur. Necə əsr dünyanın paytaxtı olan Paris kimi bir şəhərdə Azərbaycan alimi haqqında məqalələrin dərc olunması, zənnimizcə hər bir azərbaycanlıda qürur hissi oyada bilər. Əsgər Zeynalov beynəlxalq miqyasda tanınmış alimdir.

Əsgər Zeynalov üç dəfə - 2012, 2014, 2016-cı illərdə Dövlət mükafatına (2012-ci ildə "İrəvan ziyalıları", Sankt-Peterburq nəşri (dünya şöhrətli rus alimi B.Starkovun ön sözü ilə), 2014-də "Hüqo" monoqrafiyası (yeri gəlmişkən, müəllifin bu monoqrafiyası təkcə fransız ədəbiyyatında deyil, Azərbaycanda da Dövlət mükafatına təqdim edilmiş ilk monoqrafiyadır), 2016-da "İrəvan xanlığı... gerçəkliyin aydınlığı", ABŞ nəşri, "İrəvan ziyalıları". Əsgər Zeynalovun Amerika Birləşmiş Ştatlarının Şimali Korelina Ştatının Raleigt şəhərinin "Lulu" nəşriyyatında işığ üzü görmüş "İrəvan xanlığı... gerçəkliyin aydınlığı" və "İrəvan ziyalıları" kitablarının da təqdim olunması bu baxımdan təsadüfi deyildir. Həmin kitablar Azərbaycan Respublikasının Dövlət Mükafatına indiyədək təqdim olunmuş xaricdə nəşr olunmuş ilk əsərlərdir. Qeyd edək ki, professor 2014-cü ildə həm də AMEA-nın müxbir üzvlüyünə namizəd olub.

Çox zaman namizədlik işini müdafiə edənlər doktorluğu da bu işin davamı kimi, bir qədər geniş aspektdə götürürlər. Mənim üçün maraqlı olan faktlardan biri də budur ki, Əsgər Zeynalovun namizədlik işi azərbaycanlı olaraq varlığımızın, milli kimliyimizin, qədimliyimizin bir göstəricisi sayılan "Azərbaycan bayatıları Qafqaz regionunda" olmuşdur. Burda Əsgər müəllim əsasən erməni mənbələrindən araşdıraraq üzə çıxardığı yeni və mühüm olan məsələdə - ermənilərin öz bayatısı olmamışdır, qənaətinə gəlmiş və bununla da həqiqət öz təsdiqini tapmışdır. Doktorluq işi isə "Fransız ədəbiyyatında Şərq" (Volterin yaradıcılığı üzrə) olmuşdur. "Azərbaycanda fransız ədəbiyyatı tarixinin, bu ədəbiyyatın ayrı-ayrı nümayəndələrinin həyat və yaradıcılığı ilə, eləcə də Azərbaycan-fransız ədəbi və mədəni əlaqələri sahəsində peşəkar səviyyədə və sistemli şəkildə fəaliyyət göstərən istedadlı ədəbiyyatçı, tərcüməçi və alimlərdən biri" (prof. C.Nağıyev), zənnimizcə davamlı olaraq, həm də ən məhsuldar işləyən tədqiqatçı-alimlərindən öndə olanı professor Əsgər Zeynalovdur. Əsgər müəllimin elmi-pedaqoji fəaliyyəti, ədəbi, publisistik yaradıcılığı olduqca diqqətəlayiqdir.

Dünya alimləri Ə.Zeynalov haqqında mötəbər fikirlər söyləyiblər. Onlardan J.B.Qrammon (Fransa), S.Kazımoğlu (Türkiyə), B.A.Starkov (Sankt-Peterburq), R.N.İvanov (Rusiya)... çıxışları ilə tanışlıq bizdə qürur hissi doğurmaya bilməz. Azərbaycan alimlərindən Teymur Əhmədov, Cəlil Nağıyev, Sevda Vahabova, Fəxrəddin Veysəlli, Fikrət Əliyev, Samir Tağızadə, Rauf İsmayılov, Əlimuxtar Ağayev, Şahin Xəlilli, Şamil Zaman, Əfqan Abdullayev... mətbuatda çox dəyərli məqalələrlə çıxış etmişlər.

Azərbaycanlı aliminin əsərlərinə dünya şöhrətli rus və fransız alimləri Boris Starkov, Rudof İvanov, Jan Lui Bakke Qrammon, Arno Laster ön söz yazmış, onun yaradıcılığını yüksək qiymətləndirmişlər. 2007 və 2014-cü illərdə Fransanın ən nüfuzlu orqanlarından biri olan "LEST Republican" qəzetində və 2013-cü ildə isə Parisdə fəaliyyət göstərən "Viktor Hüqonun Dostları Cəmiyyəti"nin məcmuəsində professor Əsgər Zeynalov haqqında məqalələr dərc olunmuşdur. Onu da xatırladaq ki, sonuncu məqalənin müəllifi Hüqonun bütün dünyada məşhur olan fransız mütəxəssisi "Hüqo" cəmiyyətinin prezidenti Arno Lasterdir.

Bir maraqlı faktı da nəzərə çatdıraq ki, Əsgər Zeynalovun 2015-ci ildə Fransadan fransız yazıçısı Józef Artur dö Qobenonun "Şamaxı rəqqasəsi" əsərini əldə edərək ölkəmizə gətirməsini onun Azərbaycan xalqına, ədəbiyyatına göstərdiyi xidmətlərindən hesab etmək doğru olar.

Düşünürəm ki, Əsgər müəllimin genişəhatəli elmi-ədəbi fəaliyyəti haqqında irihəcmli monoqrafiyaların yazılması, yardıcılıq yolunun işıqlandırılması Azərbaycan ədəbiyyatşünaslığını yeni bir ədəbi şəxsiyyətlə zənginləşdirmiş olar. Bu da öz tədqiqatçısını gözləyir.

**Şəfəq NASİR,**
**filologiya üzrə fəlsəfə doktoru.**